Bəsti Bərdəli

## Gəlmişəm

Olan olub, keçən keçib deyiblər
Qüssəni, kədəri atıb gəlmişəm.
Sevinci dost ilə yarı bölmüşəm
Kədəri düşmənə satıb gəlmişəm.

Məni sevindirən, könlümü açan
Məşəl ürəyimdi gur ışıq saçan
Bir budaq üstündə min çiçək açan
Şirin arzulara çatıb gəlmişəm.

Unutmaq olarmı ötüb keçəni
Unutmaq olarmı ürək seçəni
Şeir cilovlayıb nə vaxtdı məni
Sonra qabağına qatıb gəlmişəm.

Kərəmi olubdu sazın naxışı
Çiçəklər bir ürkək qızın baxışı
Ələnib nur kimi yazın yağışı
İslanıb üstbaşım batıb gəlmişəm.

Məxmər çəmənlikdə dərdim hər gülü
Tikansız görürəm burda hər gülü
Biraz yuxuluyam, bir az mürgülü
Elə bil cənnətdə yatıb gəlmişəm.